**İsmayılova Mətanət Əli qızı** [46]

## NİZAMİ GƏNCƏVİNİN TƏBİƏTİ MÜHAFİZƏ KONSEPSİYASININ AKTUALLIĞI

Dünya ədəbiyyatının beş ən görkəmli şairi sırasına daxil edilən dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri bütün dövrlərdə müasirdir, onun toxunduğu məsələlər həmişə öz aktuallığını saxlamışdır. Bu gün də nizamişünaslıqda yeni fikirlər söylənilir, şairin yaradıcılığı üzərində hələ də tədqiqatlar aparılır, araşdırılır. 2021-ci ilin Prezident İlham Əliyev tərəfindən Nizami Gəncəvinin şərəfinə "Nizami ili" elan edilməsiNizami Gəncəvi dühasının təbliği üçün yeni imkanlar açdı.

Dahi Nizamini yalnız şair kimi tanımaq ədalətsizlik olardı. O, eyni zamanda, gözəl alim olmuşdur, ölməz əsərlərində dünyanın o zamankı bütün elmləri haqqında fikirlərini bədii dildə açıqlamış və təbliğ etmişdir.

Təbiətşünas alim kimi də onun fikirləri zəmanəmizdə çox dəyərlidir. Nizami Gəncəvinin əsərlərində 50-yə qədər heyvan növünün, Azərbaycanda və digər ölkələrdə yetişən çoxsaylı dərman bitkilərinin adı çəkilir.Onun yaradıcılığında fotosintez prosesi, dünyanın yaranışı ilə bağlı məlumatlar, anatomiya, fiziologiya, maddələr mübadiləsi və s. proseslərlə bağlı olduqca qiymətli fikirlər yer almışdır. "Xəmsə"də təbiətdə suyun böyük və kiçik dövranına, okeanların, dənizlərin, çayların, göllərin yaranmasına aid maraqlı məlumatlara da rast gəlirik.

Mütəfəkkir şairin qəzəl və qəsidələrindən tutmuş, ölməz "Xəmsə"sinə qədər bütün əsərlərində insanın ekoloji tərbiyəsi ən önəmli yerdə dayanır.Nizami bu məsələni diqqət mərkəzində saxlayaraq insanları təbiəti ümumbəşəri sərvət kimi qorumağa çağırır. Ətraf mühit məsələsi Nizami yaradıcılığında o qədər elmi şəkildə verilmişdir ki, onun dühasına heyrət etməyə bilmirsən. Bu gün bəşəriyyətin üzləşdiyi ekoloji təhlükəsizlik problemini dahi şair sanki 880 il bundan öncə görmüş, insanları təbiəti xilas etməyə, onun qayğısına qalmağa səsləmiş, eyni zamanda, onun həlli yollarını araşdırmışdır. Görkəmli şərqşünas alim professor Rüstəm Əliyev bu məsələyə belə münasibət bildirir: "Şairin təliminə görə təbiət vahid, bölünməz bir orqanizmdir. İnsanlar da təbiətin bir hissəsidir. Təbiətin hər üzvü müəyyən bir vəzifə ifa edir. Təbiətin bir üzvünün zədələnməsi onun bütün cisminə xələl gətirə bilər, bunun nəticəsində də insanlar çox böyük təhlükəyə düçar olar.

Təbiətdə heç bir artıq üzv yoxdur, heyvanlar da insanlar kimi cana malikdirlər, onlar yalnız şüur etibarilə bizdən aşağı pillədə dururlar. Odur ki, insanlar heyvanları öz nəfslərinin əmrlərinə görə məhv etməməlidirlər" [1.114]

Bəli, Nizami insanın təbiətə mənfi münasibətini kəskin şəkildə tənqid edirdi. Bunu onun bütün əsərlərində görmək mümkündür. "Sirlər xəzinəsi", "Leyli və Məcnun" və "Yeddi gözəl" poemalarında isə bu məsələyə daha çox toxunulmuşdur. "Firidunla ceyranın hekayəti"ndə ("Sirlər xəzinəsi") şair hər bir canlını qiymətli bir "inci" adlandırır. Can verməyə qüdrətin yoxdursa, can almağa da ixtiyarın yoxdur, deyir.

Üstünlükdə varlığın birincidir dünyada,
Hər canlı da sənintək bir incidir dünyada.
Qan bahası istəyən çoxdur deyə can alma,
Can verməyə qüdrətin yoxdur deyə can alma. [bax:7]

Şairin "Yeddigözəl" poemasında bu mövzu ilə bağlı ibrətamiz hekayələrdən biri" Bəhramın ova çıxması və gurları dağlaması" adlanır. Hekayədə göstərilir ki, Bəhram şah gurları ovlayanda onları yaralamama qücün ya kəmənd atar, ya da əllə tutardı.Əgər ceyran dördyaşına çatmayıbsa, onu açıb buraxardı. İslam dinində də heyvan və quşların körpə balalarını ovlamaq qadağan edilir. Şəriətə görə onların əti haramdır.

Yıxsaydı yüz guru əgəryan-yana
Qıymazdı dörd yaşı qurtarmayana.
Onun bir beləcə adəti vardı:
Gənc gurun qanını haram sayardı. [6.63]

Bəhram şah gurları azadlığa buraxanda onlara damğa vurardı. Bununla da heç kim şahın damğası olan ceyranı ovlaya bilməzdi. Göründüyü kimi böyük şair Bəhram şahın timsalında insanları təbiəti qorumağa, ona qarşı insani münasibət bəsləməyə, yaxşı niyyət, hümmət və mərhəmət sahibi olmağa çağırır, ən yüksək mənsəbli dövlət adamını nümunə gətirməklə onlara təsir etməyə çalışır.

Prof. X. Əlimirzəyev "Nizami Gəncəvinin insan konsepsiyası" əsərində yazır ki, "Nizami fəlsəfi təliminə görə, insan təkcə cəmiyyətə, öz həmcinslərinə deyil, həm də təbiətə, canlılara ləminə münasibətdə humanist qanunlara, yüksək əxlaqi dəyərlərə əsaslanmalıdır. Çünki insan da təbiətin ayrılmaz bir hissəsidir."[2.51]

Nizami insanların təbiətə-bitki və heyvanlara amansız münasibətinə qarşı çıxır, belə insanlardan uzaq olmağı tövsiyə edir, onları qınayır, "diyxislət", "yırtıcı" adlandırır, digər canlıların da insanlar kimi təbətin bir parçası olduğunu vurğulayır.

Müasir dövrdə atmosferin, suyun, torpağın çirklənməsi əsas ekoloji problemlərdən biridir. İnsanlar dünyamızın ekoloji problemləri haqqında XX əsrdə düşünməyə başlamışlar, lakinXII əsrdə yaşamış Nizami bu fəlakətləri görmüş, onları qabaqlamağa çalışmışdır. Ekoloji problemlərin yaşadığı dövr üçün də aktual olduğunu "İsgəndərnamə" əsərində belə təsvir etmişdir:

Deyərdin bu yerlər iki hissəydi;
Torpağı gümüşdü, suyu cöhərdi.
Nə gümüş üstündə dincəlmək olar,

---

[46] *ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci. Bakı, Azərbaycan. matanatismayilove@gmail.com*

Nə civə su kimi içməyə yarar.
O yer tutulmuşdu belə bir dərdə,
Çökmüşdü torpağa qara bir pərdə.
Hardaki içməli bir çeşmə vardı,
İçində su ilə civə qaynardı.
Su civə üstündə tutmuşdu qərar,
Ordan cürətlə su içirdi onlar.
Çalxalanmasaydı əgər çeşmələr
Civədən görməzdi heç kimsə zərər.
Çeşmələr bulanıb qaynaşan zaman
Heç kimsə əyilib içməzdi ondan.
Bilməyib içsəydi bir adam əgər,
Onu öldürərdi sudakı zəhər.
Şah bunu biləndə, tez verdi fərman:
Hamı ayıq olsun su içən zaman!
Hər kim axar sudan istəsə içmək
Onu ehtiyatla durultsun gərək. [4.175]

Göründüyü kimi, ətraf mühitin çirklənməsi, suyun və torpağın yararsız hala düşməsi şairi düşündürür və narahat edir, bundan çıxış yolu axtarır. Əsasəndə içməli suyun qıtlığı məsələsinə əsərlərində tez-tez rast gəlirik. O, suyun necədə əvəzsiz bir sərvət olduğunu, ona qənaətcilliklə yanaşmanin vacib olduğunu xatırladır. Maraqlıdır ki, dahi şair su problemin necə aradan qaldırılmasını da düşünür, onun həlli yollarını göstərməyə çalışır. Bunu "Xosrov və Şirin" poemasının Məhin banunun Fərhada süd arxı çəkdirməsi ilə bağlı hissəsində də görürük.Burada şair südün (suyun) korlanmadan təmiz şəkildə saraya qədər gətirilməsinin yollarını göstərir.

Vətəninin təbii zənginliklərini böyük məhəbbətlə tərənnüm edən Nizami Gəncəvinin bütün poemalarında təbiət gözəlliklərinin təsviri diqqəti cəlb edir. Dahi şair doğma yurdumuzun təbii zənginliklərinə, gözəlliklərinə məftun olmuşdur vəbundan ilham alaraq, əsrarəngiz təbiət lövhələri yaratmışdır. Professor B. Budaqovun yazdığı kimi, Nizami əsərlərində təbiətə məftunluq qırmızı xətt kimi keçir. Bununla yanaşı,dahi şair yaşıllığın məhv olmasından, təbiətə vurulan ziyandan da narahat olmuşdur:

Bir yerdə göyərti bitməsə əgər,
Orda canlı məxluq necə ömr edər? [4.147]

Göründüyü kimi fotosintez prosesinin mahiyyətini və əhəmiyyətini dahi şair-alim hələ on ikinci əsrdə söyləmişdir. Nizami canlıların yaşaması və inkişafı üçün sağlam mühitin, atmosferin olmasının zəruriyini bilirdi. Buna görə də təmiz hava və bol oksigenin yaranması üçün yaşıllıqların qayğısına qalmağı təbliğ və tələb edirdi.

Nizami bütün əsərlərində təbiətə xəyanəti insanın özünə xəyanəti kimi qiymətləndirir və belə adamların bir gün cəzasını alacağına inanır:

Böyük bir ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü təxtindən. [4. 30]

Ağacı yıxanlar tez yıxılarlar,
Ovçunun axırı dilənçi olar. [3.456]

Güllərə dağ çəkmək olmasın peşən,
Yetirməz onları birdə bu gülşən. [4.128 ]

Min gura yağını qırdı o insan,
Axır qurtarmadı gur tapdağından.[6.291] və s.

Ulu Öndər Heydər Əliyev də ətraf mühitin qorunmasını milli-mənəvi məsələlərdən hesab edirdi və bəzi insanların təbiətə qarşı laqeyid münasibətlərini sərt şəkildə tənqid edərək deyirdi ki, əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, həm də özünə xəyanət edir.

"Nizami yaxşı başa düşürdü ki, təbiətlə, onun qoynunda yaşayan bütün canlı aləmlə insan arasında daimi vəhdət, qırılmaz əlaqə, əbədi ünsiyyət, bağlılıq vardır. Bəşəriyyət özünün gələcək həyatını qorumaq, tam səadətə qovuşmaq istəyirsə, o təbiəti bir anlıq mənfəət naminə kor-koranə məhv etməkdən çəkinməlidir. Onu qorumalı, mühafizə etməlidir. Bir sözlə, cəmiyyətlə təbiət arasında qarşıdurmaya son qoyulmalı, kamil ahəngdarlıq yaradılmalıdır. Əks təqdirdə təbiətə yersiz müdaxilə, şüursuz münasibət insanlığı ağır fəlakətə, faciəyə, əbədi məhvə aparıb çıxarda bilər." [2.52]

Böyük mütəfəkkirin ətraf aləmə sonsuz məhəbbəti oxucusu ilə təbiət arasındavəhdət yaratmaqla yanaşı onu sevməyə və qorumağa vadar edir.

Nizamişünas alim Bayram Apoyev dahi şairin ekoloji tərbiyə ilə bağlı fikirlərini aşağıdakı kimiümumiləşdirmişdir:

- təbiətin son əsəri, şərəfi, şanı olan insan öz varlığı ilə dünyada "birinci", ən üstün olsa da, hərbir canlı da insan qədər

dəyərli "birincidir";

- insan hər zaman öz ülviyyətini qorumalı, təbii gözəlliklərdən yalnız zövq almalı, canlıları məhv olmaqdan xilasetməli, onlardan səmərəli istifadəyə çalışmalıdır;
- təbiət bütöv bir orqanizmdir, burada hər bir üzvün, hər bir ünsürün, hər bir canlının öz yeri və əhəmiyyəti vardır;
- təbiətin korlanması son nəticədə insanın özünün məhvinə səbəb olə bilər; "ağacı yıxanlar tezyıxılarlar";
- ölkənin təbii zənginlikləri və gözəlliklərinin qorunmasında dövlət başçısı və məmurlar hamıya nümunə olmalıdır vəs. [1.125]

Ekoloji tərbiyə hər zaman təbiətə münasibətdə fəal, şüurlu mövqeyin formalaşmasını tələb edir. Təbiəti qorumaq hər bir insanın vətəni, xalqı, vicdanı və mənəviyyatı qarşısında öhdəsinə götürdüyü vəzifələrdəndir. Dahi şairin hikmət dolu misraları bu gün də gənc nəsildə ekoloji dünyagörüşün formalaşması istiqamətində canlı təbiətə humanist münasibətin yaranmasına səbəb olur, onları düşündürür:

Torpağa mərhəmət xeyirdir, inan,
Lütf etsən gül verər, zülm etsən tikan. [5.185]

**Ədəbiyyat siyahısı**


1. Apoyev B. Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, "Adiloğlu" 2008, 244 səh.
2. Əlimirzəyev X. Nizami Gəncəvinin insan konsepsiyası. Bakı, "Gənclik", 2001, 354 s.
3. Gəncəvi N. Xosrov və Şirin. Bakı, "Lider", 2004, 509 s.
4. Gəncəvi N. İqbalnamə. Bakı, Lider", 2004, 256 s.
5. Gəncəvi N. Leyli və Məcnun. Bakı, "Lider", 2004, 288 s.
6. Gəncəvi N. Yeddi gözəl. Bakı, "Lider", 2004, 335 s.
7. https://www.ensiklopediya.az/az/nizami-gencevi-sirler-xezinesiyeddinci-sohbet



Açar sözlər: Nizami, təbiət, ətraf mühit, ekoloji tərbiyə, aktuallıq
Keywords: Nizami, nature, environment, ecological education, relevance
Ключевые слова: Низами, природа, окружающая среда, экологическое образование, актуальность



**Xülasə**

Məqalədə dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində təbiətin mühafizəsi, insanın ekoloji tərbiyəsi haqqında fikirləri faktlar əsasında təhlilə yönəldilir. Bu gün bəşəriyyətin üzləşdiyi ekoloji təhlükəsizlik problemini dahi şair doqquz əsr bundan əvvəl görürdü və insanları təbiəti ümumbəşəri sərvət kimi qorumağa çağırırdı.Şairin şeirlərində təbliğ olunan ətraf aləmin mühafizəsi məsələləri bu gün də aktualdır və gənc nəsildə ekoloji dünyagörüşün formalaşmasına yardım edir.

Məqalədə şairin ekoloji tərbiyə ilə bağlı fikirləri əsərlərindən nümunələr gətirilməklə təhlil edilmişdir.

**Summary**

The article focuses on the facts-based analysis of the views of the great Azerbaijani poet NizamiGanjavi on the protection of nature and ecological education of man. Nine centuries ago, the great poet saw the problem of environmental security facing mankind today and called on people to protect nature as a universal treasure. Environmental protection issues covered in his poetry verses are still relevant today and contribute tothe formation of an ecological worldview in the younger generation.

The article analyzes the poet's views on environmental education with samples from his works.

**Резюме**

Статья направлена на фактический анализ взглядов великого азербайджанского поэта Низами Гянджеви на охрану природы и экологическое воспитание человека. Девять веков назад великий поэт видел проблему экологической безопасности, стоящую сегодня перед человечеством и призывал людей беречь природу как общечеловеческое сокровище. Вопросы защиты окружающей среды, освещаемые в стихах поэта, актуальны и сегодняшний день и способствуют формированию экологического мировоззрения у подрастающего поколения.

В статье взгляды поэта на экологическое просвещение анализируются на примерах из его произведений.


**RƏYÇİ: dos.S.Abbasova**